# GÖYƏRÇİN

9
2024
İSSN-0207-4710



RAFİQ YUSİFOĞLU

## OVÇU VƏ TURAC

Addım səsi eşidib,
Turac havaya uçdu.
Ovçu əlində tüfəng
Ovun dalınca düşdü.

Düz "Qırmızı kitab"ın
Üstünə qondu turac.
Bunu görəndə ovçu
Geri döndü naəlac...

## HƏMƏRSİN KOLLARI

Həmərsin kollarında
Açılıb ağ çiçəklər.
Elə bil budaqlara
Qonub ağ kəpənəklər.

O zərif kəpənəklər
Birdən qanad açdılar.
Hərəsi öz yerində
Meyvə qoyub uçdular...

## MƏHƏBBƏT AĞACI

Dəmirağac canlıdı,
Nə dəmirdi, nə daşdı.
Ürəyində sevgi var,
O, sehrli ağacdı.

Gövdəsi çox möhkəmdi,
Budaqlarısa uca.
Məhəbbət ağacı da
Deyirlər bu ağaca.

Yanaşı bitənlərə
Siz diqqətlə baxın bir;
Bu ağacın budağı
O ağaca əl verir.

"Əl əldən" yapışdımı,
Daha ayrılan deyil.
Bu budaq o budağa
Qaynaq olur elə bil...



## GİLİZ

Gör nə tapıb gətirib
Evimizə Gülüzə:
Quşu uçmuş yuvadı,
Gilizə bax, gilizə.

İçindəki qurğuşun
Hara gedib? -Uy, uy, uy!
Görəsən hansı quşun
Sinəsində uyuyur?

"Bu yuvadan uçan quş"
Axı kimə gərəkdi?
O gilizin içində
Balaca bir gül əkdim.

Giliz güldana döndü,
Güllə gül olub bitdi.
Uşaqların üzündən
Kədər buludu itdi.

## GÜNƏŞ QÜRUB EDƏNDƏ

Günəş hər şeydən uludu,
Günəş hər yerdən ucadı.
Ağacın, otun, zəminin
Əlindən tutub ucaldır.

Günəş elə müqəddəsdir,
Hamıya bir gözlə baxar.
Günəş qürub edəndə də
Heç kəsə çevirməz arxa...

## ODLU YUMAQ

Sanki yun darağıdı
Ağacların budağı.
Onda yun tək daranır
Günəşin zər saçağı.

Günəş gülümsəyəndə
Ləzzət çəkir üfüqlər.
Günəş odlu yumaqdı,
İlmələri şəfəqlər...

Nə qədər çözələnsə,
Azalmır ha bu yumaq;
Olar bütün dünyaya
Ondan paltar toxumaq...

## AZARSAN HA

- Getmə gözümdən iraq,
Bulaq suyu, amandı.
Bir az ehtiyatlı ol,
Azarsan ha, dumandı!

- Qorxma, dostum, yollara
Mən diqqətlə baxaram.
Lap gözü yumulu da
Gedib çaya çıxaram...

## ŞABALID AĞACI

Uzaqdan baxan zaman
Uca qoza bənzəyir.
Yamyaşıl yarpaqları
Budaqları bəzəyir.

Gəlirəm lap yaxına,
Baxıram diqqət ilə.
Yox, mən çaşmışam, qozun
Yarpağı olmur belə.

Budaqda yaşıl qoz yox,
Yaşıl-yaşıl qoza var.
Elə bil ki, balaca
Kirpilərdi qozalar.

Hərəsinin üstündə
Gör nə qədər tikan var?
Yetişməmiş meyvəni
Qoruyur bu tikanlar...